

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 205 (23.116)

26 oktyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də BMT baş katibinin müavini Rəşid Xalikovu qəbul edib.

* * *

Dövlətimizin başçısı oktyabrın 25-də Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodetsi qəbul edib.

* * *

Prezident İlham Əliyev oktyabrın 25-də ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul edib.




## Muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafı diqqət mərkəzindədir



***Muxtar respublikada iqtisadi və sosial həyatın bütün sahələrində müasir texnologiyaların geniş surətdə tətbiqi ümumi inkişafı təmin etməklə yanaşı, informasiya cəmiyyətinin formalaşmasına da yeni imkanlar yaradır.***

Son dövrlərdə muxtar respublikada 4G və "Naxtel" simsiz telefon xidmətinin istifadəyə verilməsi, Naxçıvan Dövlət Televiziya və Radiosunun internet üzərindən yayımlanması, "Universitet" televiziyasında videodərslərin hazırlanması və distant tədrisin tətbiqi məqsədilə avadanlıqların quraşdırılması, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin və onun rayon filiallarının səmərəli fəaliyyətlərinin təşkili, iqtisadiyyatın bütün sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin uğurla davam etdirilməsi bu sahənin sürətli inteqrasiyasına təkan verib.

Muxtar respublikada "Elektron hökumət"in formalaşdırılması sahəsində də ardıcıl tədbirlər aparılıb, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istifadəyə verilib, dövlət orqanlarına, vətəndaşlara və sahibkarlıq subyektlərinə elektron imzaların verilməsinə başlanılıb. Bundan əlavə, "Evədək optika" layihəsi üzrə görülən işlər də telekommunikasiya sahəsində yeniliklərin əldə olunmasına şərait yaradıb. Bu istiqamətdə təkcə son on ildə muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafına, ümumilikdə, 65 milyon 414 min 200 manat vəsaitin yönəldilməsi bu sahədə görülən işlərin əhatəliliyini xarakterizə edən mühüm bir göstəricidir.

Rabitə sahəsindəki sürətli inkişaf poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına imkan yaradıb. "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 30 iyul tarixli Sərəncamı isə bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirib.

Reallaşdırılan məqsədyönlü islahatlar muxtar respublikada rabitə və informasiya sahəsi üzrə əsas göstəricilərin müsbət dinamikasını təmin edib. Belə ki, 2008-ci ildə muxtar respublikada əsas telefon aparatlarının sayı 23 min 732 nömrə olduğu halda, 1 iyul 2018-ci il tarixə bu göstərici 2,8 dəfə artaraq 67 min 399 nömrəyə çatıb.

Cari ilin 8 ayında muxtar respublikada 1136 ədəd yeni telefon sabit şəbəkəyə qoşulub, ümumilikdə, hər yüz ailəyə düşən telefon aparatlarının sayı 65-ə çatdırılıb. Bu dövr ərzində hər yüz ailəyə düşən mobil telefonların sayı isə 104-ü ötüb.

Əhalinin maddi rifah halının yaxşılaşmasının və informasiya texnologiyaları sahəsində yaradılmış şəraitin nəticəsidir ki, 1 yanvar 2018-ci il tarixə muxtar respublikanın ev təsərrüfatlarında, müəssisə və təşkilatlarda 128,6 min kompüter mövcud olub. 1 yanvar 2008-ci illə müqayisədə kompüterlərin sayı 5,3 dəfə artıb. Əhalinin hər 100 nəfərinə düşən kompüterlərin sayı 28 ədəd təşkil edir.

Rabitə sahəsində qazanılmış uğurların nəticəsidir ki, muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet xidmətləri təşkil edilib.

Muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bu sahə üzrə göstərilən xidmətlərin dəyərinin dinamik artımına zəmin yaradıb. Belə ki, informasiya və rabitə xidmətlərinin dəyəri 2018-ci ilin yanvar-avqust aylarında 34 milyon 428 min 500 manat olub ki, bu da 2008-ci ilin müvafiq dövründəki göstəricidən 2,4 dəfə çoxdur.

Cari ilin yanvar-avqust aylarında informasiya və rabitə sahəsinin inkişafına 2 milyon 521 min manatdan artıq vəsait yönəldilib.

2018-ci ilin ötən dövründə Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi yaradılıb, Şərur rayonunda İbadulla Radio-Televiziya Verici Stansiyası üçün yeni bina tikilib.

Şərur rayonunun Ərəbyengicə və Babək rayonunun Yuxarı Buzqov kəndlərində poçt bölmələri yaradılıb, Şərur rayonunun Qışlaqabbas, Babək rayonunun Aşağı Buzqov və Culfa rayonunun Dizə kəndlərində poçt bölmələri yeni binalara köçürülüb.

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində 384, Şərur rayonunun Qışlaqabbas kəndində 512, Ərəbyengicə kəndində 288, Babək rayonunun Yuxarı Buzqov kəndində 96, Kəngərli rayonunun Qarabağlar kəndində 448 nömrə tutumlu avtomat telefon stansiyaları quraşdırılıb, Babək rayonunun Aşağı Buzqov kəndində 256, Culfa rayonunun Dizə kəndində 384 nömrə tutumlu avtomat telefon stansiyaları yeni binalara köçürülüb.

Bu dövrdə muxtar respublikanın yaşayış ərazilərində 43 DSLAM avadanlığı quraşdırılıb, Naxçıvan Muxtar Respublikasında "Elektron hökumət" portalının yenilənməsi davam etdirilib.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*



## Naxçıvanbankın ödəmə terminallarının xidmətlərindən istifadə artır

***Müasir insan həyatını sürət və komfortsuz təsəvvür etmək mümkün deyil. Bu baxımdan bank və müxtəlif ödəmə xidmətləri də zaman içərisində müasirləşərək əvvəlki uzun növbələrdə vaxtitirmə dövründən indiki operativ elektron xidmətlər səviyyəsinədək yol keçib. Alınan malın, yaxud göstərilən xidmətin haqqının dərhal ödənişini həyata keçirməyə imkan verən müasir ödəmə terminalları isə bu baxımdan tətbiq olunan mühüm yeniliklərdəndir. Ölkəmizin bankçılıq sektorunda mühüm nailiyyətlərə imza atan "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən muxtar respublika ərazisində quraşdırılan ödəmə terminalları əhaliyə göstərilən ödəniş xidmətlərinin təkmilləşdirilməsində əhəmiyyətli addımdır.***

Bu barədə "Naxçıvanbank" ASC-nin Marketinq, reklam və beynəlxalq əlaqələr şöbəsindən aldığımız məlumatda deyilir ki, müştərilərə "Birlikdə yüksələk" devizi ilə xidmət göstərən Naxçıvanbank onların rahatlığı üçün 24 saat ərzində, hətta bayram və istirahət günləri də lazım olan ödənişləri edə bilməsi üçün cari ilin əvvəllərindən terminalların quraşdırılmasına başlayıb. Muxtar respublikanın paytaxtı ilə yanaşı, Şərur, Ordubad, Culfa şəhərlərində olmaqla, ümumilikdə, 40-a yaxın ödəmə terminalı quraşdırılıb. Bankın terminallarında müxtəlif ödənişlər həyata keçirmək mümkündür. Belə ki, istifadəçilər smartkartlarla edilən ödənişlər də daxil olmaqla, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti, Naxinternet, Naxtel 4G, Naxçıvan Su, Naxtelekom, "Naxçıvanqaz" İstehsalat Birliyinə, o cümlədən bütün mobil operatorlara edilən ödənişləri bu terminallar vasitəsilə onlayn rejimdə çox qısa bir müddətdə edə bilərlər. Bunlardan əlavə, Naxçıvanbankın ödəmə terminalları vasitəsilə Sazz, KATV1, Nar homenet, Azdata OM, Baktelecom.az, Aztelekom, Azeronline, Connect ADSL kimi bir sıra internet provayderlərin, stasionar telefonların, TV provayderlərin ödənişləri, o cümlədən Dövlət İmtahan Mərkəzinə aid ödənişlər də yerinə yetirilə bilər.

Bankdan bildirdilər ki, tezliklə bu terminallar vasitəsilə yeni xidmətlərin də müştərilərin istifadəsinə veriləcəyi gözlənilir.

Terminallardan istifadə çox rahatdır. Naxçıvanbank terminallarında yalnız kağız əskinaslar qəbul edildiyindən aparılan hər hansı ödəniş zamanı hesabda müəyyən məbləğdə qalıq qalarsa, həmin qalıq məbləğ növbəti ayda yenidən ödəniş etdikdə ümumi ödənişin (borcun) məbləğindən çıxılır. Əgər terminalla və ya ödəmə prosesi ilə bağlı hər hansı problem yaşanarsa, 1185 müştəri xidmətlərinə zəng edərək bunu dərhal həll etmək mümkündür. İstifadəyə verildiyi qısa müddətdə isə bu terminallardan xeyli sayda muxtar respublika sakini istifadə edib. Belə ki, indiyə qədər terminallar vasitəsilə yerinə yetirilən əməliyyatların ümumi həcmi, təqribən, 600 min manatdan artıq olub.

Qeyd edək ki, Naxçıvan şəhərində bu terminallar Naxçıvanbankın baş ofis və filial şəbəkəsi ilə yanaşı, şəhərimizdəki universitetlərdə, avtovağzal və hava limanında, Culfa dəmiryol stansiyasında, habelə iri alış-veriş mərkəzlərində, mərkəzi bazarda, marketlərdə və əhalinin sıx rast gəlindiyi digər yerlərdə quraşdırılaraq istifadəyə verilib.

✍ Ə.CABBAROV

## İqtisadiyyat Nazirliyinin əməkdaşı İtaliya Respublikasına təlim səfərində iştirak edib

Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin benefisiarı olduğu "Azərbaycan Respublikasında kənd yerləri və regionların inkişafına dəstək proqramı"nın icrasına texniki yardım layihəsi çərçivəsində 12-21 oktyabr 2018-ci il tarixlərdə İtaliya Respublikasına təlim səfəri təşkil olunub. Səfərdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Mircavid Tağızadə də iştirak edib.

Təlim səfərində kənd təsərrüfatı üzrə Elmi-Tədqiqat İnstitutu ilə tanışlıq olub, "Şərabçılıq Kooperativləri və Assosiasiyaların fəaliyyəti" ilə bağlı mühazirələr dinlənilib.

Təlim səfərinin növbəti günlərində İtaliyanın müxtəlif şəhərlərində yerləşən şərab emalı, aqroturizmlə məşğul olan və orqanik məhsul istehsal edən iri şirkətlərə səfərlər edilib. Təlimçilərə və iştirakçılara muxtar respublikanın sosial-iqtisadi və turizm potensialını əks etdirən kataloq, jurnal, broşürlər təqdim edilib.

İtaliyada keçirilmiş təlimdə iştirakda əsas məqsəd şərab istehsalı və emalı, kooperativlərin fəaliyyəti, yerli fəaliyyət qruplarının milli, regional və yerli hakimiyyət orqanları ilə koordinasiya mexanizmləri ilə tanış olmaqdır.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

Yaşıl guşə

# Payız mövsümündə muxtar respublikanın yaşıl örtüyü daha da zənginləşdirilir



***Muxtar respublikamızda ən qiymətli sərvət və ekoloji problemlərin aradan qaldırılmasında əsas təbii vasitə olan meşələrimizin mühafizəsi və artırılması, yeni meyvə bağlarının salınması məqsədilə görülən işlər artıq bəhrələrini verməkdədir. Bunun ifadəsidir ki, son 25 ildə yaşıllıqların ümumi sahəsi 0,6 faizdən 14 faizə qədər artıb. Təbii meşə ehtiyatı az olan və 1990-cı illərdə insanların enerji ehtiyatı kimi istifadə etdiyi meyvə ağaclarının bu qədər artmasının başlıca səbəbi odur ki, təbiətə göstərilən dövlət qayğısı davamlı xarakter alıb. Bunun təməli hələ 1993-cü ilin 2 aprel tarixində ümummilli liderimiz Heydər Əliyevin qəbul etdiyi tarixi qərarla muxtar respublika ərazisində başlanan yaşıllaşdırma tədbirləri olub və bu gün də bütün respublika ərazisində uğurla davam etdirilir.***

2003-cü il 18 fevral tarixdə "Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" və qəbul olunan dövlət proqramlarına uyğun olaraq yeni meşə massivlərinin, yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması sahəsində tədbirlər ardıcıllıqla davam etdirilir. Bu gün xüsusilə qeyd olunmalıdır ki, artıq insanlar meşələrə yanacaq vasitəsi kimi baxmırlar. Çünki Naxçıvanda artıq ən yüksək səviyyədə enerji təminatı yaradılıb, vətəndaşlarımız fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunub, əhalinin yaşayış səviyyəsi daha da yaxşılaşdırılıb.

Muxtar respublikamızda da meşələrin qorunması və artırılması həyata keçirilən ekoloji siyasətin əsas amilidir. Deyə bilərik ki, bu sahədə böyük uğurlar qazanılıb. Son illərdə həmin sahədə görülən işlər beynəlxalq ekoloji təşkilatlar tərəfindən də qeyd edilib. Hər ötən il muxtar respublika ərazisində yeni meşə massivləri, meyvə bağları salınır. Diyarımızda iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil etdiyi üçün, xüsusilə torpaqların münbitliyinin bərpa olunmasında yaşıllaşdırma tədbirlərindən istifadə edilir. Yaşıllıqlar salınarkən, əsasən, kənd təsərrüfatı əkinləri üçün yararsız sahələr seçilir ki, bu da ekoloji tarazlıqla bərabər, iqtisadi səmərəliliyin də bərpa olunmasına şərait yaradır.

Muxtar respublikada hər ilin yaz və payız fəslində torpaq, iqlim və hidromühitin fiziki-kimyəvi xüsusiyyətləri nəzərə alınmaqla tarlaqoruyucu, sahilbərkidici, eroziya və sürüşməyə meyilli sahələrdə meşə massivləri, meyvə bağları salınır. Naxçıvançay, Gilançay, Əlincəçay vadilərində, xüsusi mühafizə olunan təbiət ərazilərində, Darıdağ ərazisində, "İşgəsu" massivində, Əshabi-Kəhf ziyarətgahına gedən yolun sağ və sol hissələrində, ziyarətgah ətrafında, Didivar kəndinin ərazisində mövcud təpələrdə terras üsulu ilə, Duzdağ Fizioterapiya Mərkəzi ətrafında, Naxçıvan-Sədərək, Naxçıvan-Şahbuz-Batabat və Naxçıvan-Culfa magistral avtomobil yollarının sağ və sol hissələrində, Arpaçay sol sahil kanalının aşağı sahillərində, Dəmirçi kəndinin yuxarı hissələrində, Vəlidağ ətrafında, yaşıllıq və meşə meliorativ tədbirləri aparılıb. Bundan əlavə, Naxçıvan şəhəri ətrafında muxtar respublikanın mövcud sututarlarının, çay massivlərinin və su kanallarının ətrafında, xüsusi mühafizə olunan ərazilər şəbəkəsində sürüşmə və eroziyaya meyilli ərazilərdə, qobu və yarğanlarda, şoranlaşmış və bataqlıqlaşmış sahələrdə, o cümlədən yarımsəhra və səhralaşmış ərazilərdə dövlət strukturlarının dəstəyi ilə 17 min hektardan çox sahədə yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınıb. Muxtar respublikanın meşə fondu torpaqlarında və digər təbiət ərazilərində ağac və kolların bərpası və artırılması, şəxsi mülkiyyətdə olan torpaqlarda yeni meyvə bağlarının salınmasına diqqət artırılıb.

Diyarımızda ən mühüm ekoloji faktor kimi təbii iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına ciddi önəm verilir. Qeyd edək ki, ərazisinin 25 faizdən çoxu meşə ilə örtülü olan ölkələrdə ekoloji mühit



daha əlverişli, təbiət hadisələri, sellər, daşqınlar, torpaq sürüşmələri və eroziya prosesləri daha zəif olur. Xüsusilə diyarımızdakı meşələrin I qrup, yəni yalnız mühafizə, qoruyucu funksiyalı olması bu əhəmiyyəti daha da artırır. Muxtar respublika ərazisində kəskin kontinental iqlim şəraitinin mövcud olması günəşli saatların çoxluğuna baxmayaraq, meşələrin qorunması ilə bərabər, yeni meşələrin, yaşıllıqların, meyvə bağlarının salınması da zəruri edir.

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz olunmasında və məşğulluğun təmin edilməsində kənd təsərrüfatının inkişafı böyük əhəmiyyət kəsb edir. Əhalinin müxtəlif kənd təsərrüfatı məhsullarına, o cümlədən meyvə və tərəvəzə olan tələbatının ödənilməsi diqqət mərkəzində saxlanılır. Bunun üçün sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi məqsədilə müxtəlif təyinatlı güzəştli kreditlər verilir, yeni texnika və avadanlıqlar alınıb gətirilir, ardıcıl meliorativ tədbirlər görülür və məhsulların satış yarmarkaları təşkil edilir. Bu sahədə fəaliyyətin təmin edilməsi üçün icrası uğurla başa çatan 2012-2015-ci və hazırda həyata keçirilən 2016-2020-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramları muxtar respublikada yaşıllıqların zənginləşdirilməsində, yeni meyvə bağlarının salınmasında mühüm dövlət sənədləridir. Həmin dövlət proqramları ilə təsdiq edilən tədbirlər planında aidiyyəti dövlət orqanları qarşısında mühüm vəzifələr müəyyənləşdirilib. O cümlədən Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Kəngərli rayonu ərazisində 100 hektar püstə bağının, Naxçıvançay, Əlincəçay, Gilançay çayları boyunca cəviz, armud, alma, Arazboyu düzənliklərdə ərik, albalı, gavalı, şaftalı, dağlıq, dağətəyi ərazilərdə isə cəviz, armud, heyva, alma bağlarının salınması kimi tədbirlərin icra edilməsi nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, 2012-2015-ci illər üçün nəzərdə tutulmuş dövlət proqramının icrası nəticəsində, ümumilikdə, muxtar respublika ərazisində 751 hektar meyvə bağı salınıb və 660 min ədəd meyvə tingi əkilib. Bu sahənin daha da inkişaf etdirilməsi üçün 2016-cı ildə qəbul edilmiş dövlət proqramına əsasən ötən dövr ərzində hər il 200 hektardan çox yeni meyvə bağları salınıb. Süfrə üzümü yetişdirilməsi də diqqətdə saxlanılıb və orta hesabla hər il 20 hektara yaxın yeni üzüm bağları salınıb.

Proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsində rayonlaşdırma prinsipi əsas götürülüb. Bu məqsədlə ayrı-ayrı sahələrdə, o cümlədən dağlıq, dağətəyi zonaları əhatə edən xüsusi mühafizə olunan təbiət ərazilərində (qoruq, milli park, yasaqlıqlarda) tingçilik sahələri yaradılıb və müəyyən edilmiş tinglərin yetişdirilməsi istiqamətində müəyyən işlər görülüb. Cəviz, badam, alma, alça, armud, gilənar, tut, ərik, şaftalı tingləri əkilib. Ümumilikdə, müxtəlif yerlərdə 4 hektara yaxın tingçilik təsərrüfatları yaradılıb və hər il orta hesabla 400 min ədəddən çox meyvə tingi, həmçinin müxtəlif meşə və həmişəyaşıl tinglər yetişdirilir.

Görülən işlər çərçivəsində bu coğrafi ərazinin iqlim-torpaq xüsusiyyətlərinə uyğunlaşan yeni meyvə sortlarının gətirilib əkilməsinə də üstünlük verilir. Bu məqsədlə 2015-ci ildən başlayaraq püstə bağlarının artırılması və bərpası üçün lazım olacaq tinglərin yetişdirilməsi məqsədilə elmi-təcrübi işlər davam etdirilir.

Meyvəçiliyin inkişafı dövlət proqramının icrası ilə əlaqədar tədbirlər 2018-ci ildə də davam etdirilməkdədir. Bu il yaz əkin mövsümündə, ümumilikdə, 223 hektar sahədə əkin işləri aparılıb ki, bunun da 100 hektardan çoxu meyvə bağları olub. Bu işlər cari ilin payız əkin mövsümündə də davam etdiriləcəkdir. Qeyd edək ki, payız mövsümündə aparılacaq yaşıllaşdırma tədbirlərinə dair hazırlanmış əkin planında, ümumilikdə, 300 hektardan çox sahədə əkin və əkin-bərpa işlərinin aparılması nəzərdə tutulub. Bunun da 150 hektardan çoxu meyvə bağlarıdır.

Meyvəçiliyin inkişaf etdirilməsi, doğma yurdumuzda bu sahədə tarixən qazanılmış şöhrətin özünə qaytarılması, yaşıllıq və meşə ehtiyatlarının daha da artırılması iqtisadi, ekoloji baxımdan mühüm əhəmiyyət daşıyır. Bu həyati əhəmiyyətli tədbirlərin yerinə yetirilməsində hər birimiz fəal vətəndaşlıq mövqeyi göstərməliyik.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Şərurda 430 hektardan artıq sahədə taxıl əkilib



Strateji sahə olan taxılçılığın inkişafı muxtar respublikamızda diqqət mərkəzində saxlanılır. Bunun üçün kompleks tədbirlər həyata keçirilir, əkin sahələri genişləndirilir, məhsuldar toxumların əkininə üstünlük verilir, intensiv becərmə metodları tətbiq edilməklə hektarın məhsuldarlığı yüksəldilir.

Şərur rayonunda da taxıl istehsalının ilbəil artırılmasına ciddi önəm verilir. Başa çatan təsərrüfat ili bölgənin taxılçıları üçün uğurlu olub. Bundan ruhlanan torpaq mülkiyyətçiləri artıq gələn ilin bol məhsulu üçün hazırlıq işlərinə başlayıblar. Hazırda şum qaldırılır, səpin işləri həyata keçirilir və əkilmiş sahələr suvarılır.

Şərur Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, indiyədək kəndlərdə 2 min 75 hektar sahə şumlanıb, 482 hektardan artıq sahə əkilib. Bunun 430 hektarı taxıl, 52 hektarı isə arpadır. Səpində, əsasən, yüksək məhsuldarlığa malik olan "Qiymətli", "Bərəkətli", "Nurlu", "Əzəmətli", "Qılçıqsız" toxum sortlarından istifadə edilir.

Zəmilərdəki iş ahəngi göstərir ki, rayonda taxıl səpini kampaniyası optimal müddətdə başa çatdırılacaq.

Rayonda şum qaldırılması və taxıl əkini işləri sürətlə davam etdirilir.

**Xəbərlər şöbəsi**

***Torpaq, su və hava dünyadakı bütün canlılar üçün ən vacib nemətlərdir. Bu mənada, ən sadə kimyəvi formula malik olan və ilk baxışda çox adi görünən su, əslində, bütün canlı aləmin özüdür desək, yanılmarıq. Canlı həyatın yaranması və yaşaması üçün torpaq və hava kimi suyun da hansı dərəcədə əvəzedilməz olduğu bu qiymətli sərvətin çatışmadığı zamanlarda dərhal görünür.***

# Su ehtiyatlarından səmərəli istifadə olunur



Su həyat mənbəyidir. Bu nemət olmasa, yer üzündə nə insan, nə də digər canlı və bitki növləri, ümumiyyətlə, mövcud ola bilməz. Bu baxımdan suyun təbiətə həyat verən dövranı ilə yanaşı, insanın mədəni tələbatının artması ilə onun ehtiyatlarından istifadə məsələləri daha da böyük əhəmiyyət kəsb edir. Suyun sənaye, kənd təsərrüfatı və məişət məqsədləri üçün istifadəsi, ondan enerji alınması istiqamətində görülən işlər mövcud ehtiyatlardan səmərəli faydalanmanı həmişə ön plana çəkir. Suyun strateji əhəmiyyəti, ümumiyyətlə, dünyada mühüm su mənbələri üzərində maraqların kəsişməsi bizim də mövcud su ehtiyatlarımıza qarşı daha diqqətli olmağımızı tələb edir.

Suyun gündəlik istifadəsi çoxşaxəlidir. Sırf insan həyatı üçün lazım olan su ümumi su sərfinin cəmi 3-4 faizini aşmır. Belə ki, insanın digər məişət və mədəni tələbatlarının ödənilməsi daha çox su tələb edir. Ona görə də məişətdə su sərfini azaldan yeni texnoloji avadanlıqların tətbiqi suya olan tələbatın daha dolğun şəkildə ödənilməsinə imkan verir. Bununla yanaşı, su ehtiyatları qeyri-bərabər paylandığından əhalinin içməli su təminatını yaxşılaşdırmaq, yeni su anbarları tikmək, su kəmərləri çəkmək, çirkli suyu təmizləmək məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Şirin su ehtiyatlarından ən çox istifadə edildiyi kənd təsərrüfatında tətbiq olunan damcı suvarma sistemi də suya qənaət edilməsində mühüm rol oynayır.

Muxtar respublikamızda da şirin su qaynaqlarının qorunması və sudan səmərəli istifadə diqqət mərkəzindədir. Belə ki, suyun təbii dövranı, yağıntıların miqdarı daim dəyişkən olduğundan su təminatının da ciddi nəzarətə ehtiyacı vardır.

Diyarımızda yeni su anbarlarının yaradılması və su təminatı infrastrukturunun yenilələndirilməsi istiqamətində aparılan davamlı işlər indiyədək yağıntının çox az olduğu illərdə belə, su sarıdan ciddi çətinliklərlə üzləşməməyə imkan verib.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən aldığımız məlumatda bildirilir ki, bu gün muxtar respublikada 32 təbii və süni su anbarı vardır. Araz Su Anbarı istisna olmaqla, onların ümumi layihə gücü 303,5 milyon kubmetr su saxlamağa imkan verir. Bu il həmin su anbarlarına cəmi 195,3 milyon kubmetr su ehtiyatı yığılıb. Ondan istifadəyə gəldikdə isə indiyə qədər su istifadəçilərinə mexaniki üsulla və öz axımı ilə 225,8 milyon kubmetr suvarma suyu verilib. Təkrar suvarma nəzərə alınmaqla, 188 min 273 hektar torpaq sahəsi su ilə təmin olunub. Komitədən onu da bildirdilər ki, bu dövrdə muxtar respublikada mövcud olan 101 nasos stansiyası və 829 subartezian quyusu istismar edilib. Həmçinin yaşıllıq ərazilərin suvarma suyu ilə təmin olunması üçün 13 kilometr yeni suvarma boru xətti çəkilib, 10 kilometr suvarma boru xəttində təmir-bərpa işləri yerinə yetirilib.

Muxtar respublikanın suvarma və içməli su təminatında qədim hidrotexniki qurğular olan kəhrizlərdən də geniş istifadə edilir. Belə ki, bu gün muxtar respublikanın şəhər və rayonlarında 333 kəhriz istismar olunmaqdadır. Əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün bu dövrdə 9 kilometr yeni içməli su xətti çəkilib, 46,6 kilometr içməli su xəttində və 4,4 kilometr kaptajda təmir-bərpa işləri aparılıb.

İdarəetmə baxımından su təsərrüfatı mürəkkəb sahədir. Bunu suyun istənilən ərazidəki qeyri-bərabər olaraq paylanması və suya olan tələbatın çox olduğu dövrdə onun ehtiyatlarının sürətlə azalması ilə izah etmək olar. Su ehtiyatlarından məqsədyönlü yararlanmada hər kəsin üzərinə düşən vəzifə isə ümumi su təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Başqa sözlə, hər bir vətəndaşın evində, həyatında qənaət edəcəyi bir kubmetr su qızmar bir yay günü hardasa, gün altında susuz qala biləcək körpə fidanlara həyat verəcək sudur. Ona görə də hər litri çox qiymətli olan sudan səmərəli istifadə hamımızın çox yaxşı bildiyi, suyun özü qədər sadə bir həqiqətdirsə, o zaman gəlin bu gün hardasa boş yerə gecə-gündüz axıb gedən suya biganə qalmayaq, onu qoruyaq. Çünki su ehtiyatlarımız nə qədər bol, nə qədər təmiz olarsa, bir o qədər məhsulumuz bol, süfrələrimiz bərəkətli, gələcəyimiz sağlam olacaq.

**Əli CABBAROV**

*Oktyabrın 20-də Türkiyənin Şərqi Anadolu Jurnalistlər Cəmiyyətinin xətti ilə qardaş ölkənin bir qrup media nümayəndəsi Naxçıvanda səfərdə olmuşdur. Naxçıvan səfərinə qardaş ölkənin mətbuat orqanlarında və internet saytlarında geniş yer verilir, muxtar respublikada bütün sahələrdə müşahidə olunan inkişaf və tərəqqi, sabitlik nümunə kimi təqdim edilir. Şərqi Anadolu Jurnalistlər Cəmiyyətinin sədri Firudin Fazıl Özsoyun Ərzurumda nəşr olunan "Pusula" qəzetində "Qardaş köməyi və Naxçıvan" sərlövhəli məqaləsi dərc olunmuş, eyni zamanda həmin məqalə qəzetin gazetepusula.net internet saytında yerləşdirilmişdir. Həmçinin Ağrı Jurnalistlər Cəmiyyətinin sədri Ələddin Aslanın "Narınqala" qəzetində və qəzetin narınkalegazetesi.net saytında "Heyranedici Naxçıvan" adlı məqaləsi dərc olunub. Hər iki məqaləni təqdim edirik.*

## Qardaş köməyi və Naxçıvan

Həftəsonu Şərqi Anadolu Jurnalistlər Cəmiyyətinin bölgə konfransını keçirtmək üçün İqdırda idik. Konfransda üzrlü səbəblərə görə Tunceli, Elazığ, Van və Bingölü çıxmaq şərtilə digər bölgələrin – Ərzurum, Malatya, Bitlis, Muş, Ərzincan, Ağrı, Ərdahan, Qars və İqdırın jurnalistlər cəmiyyətləri iştirak edirdi. Müzakirələr zamanı bütün problemlər gündəmə gətirildi və aid qurumlara çatdırılması qərara alındı.

Toplantıdan sonra Türk dünyasının önəmli liderlərindən olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dəvətlisi olaraq Naxçıvanda birgünlük səfərdə olduq. Naxçıvan Dövlət Televiziyasının əməkdaşları səfər müddətində bizi müşayiət etdilər. Hər iki tərəfin media nümayəndələrinin görüşündə Türkiyənin şəhərlərini Naxçıvana, Naxçıvanı isə Türkiyəyə tanıtmaq sahəsində media qurumlarının əməkdaşlığının və qarşılıqlı təbliğatın əhəmiyyəti vurğulandı, səmərəli müzakirələr aparıldı.

Önümüzdəki günlərdə Naxçıvanda gördüklərimiz və müşahidələrimiz barədə oxucularımıza ayrıca yazılarda məlumat verəcəyik. Lakin bu yerdə bir həqiqəti etiraf etməliyik. O da Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan üçün gördüyü işlərdir. Naxçıvan Muxtar Respublikası günbəgün öz simasını dəyişir, inkişaf edir və müasir muxtar respublika olmaq yolunda əmin addımlarla irəliləyir. Naxçıvan bütün bunları Ali Məclisin Sədri cənab Vasif Talıbovun rəhbərliyinə və idarəçiliyinə borcludur.

## Heyranedici Naxçıvan

*Ötən həftəsonu bir daha Naxçıvana getdim. Şərqi Anadolu Jurnalistlər Cəmiyyətinin sədri Firudin Fazıl Özsoy və digər həmkarlarımla birlikdə İqdırda keçirilən bölgə konfransından sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Türk dünyasının müdrik liderlərindən olan cənab Vasif Talıbovun dəvətlisi qismində Naxçıvanda səfərdə olduq, bu qədim yurdu gəzdik, çox məhsuldar görüş keçirdik.*









1992-ci ildən bəri bir neçə dəfə Naxçıvana səfər etmişəm. Həmin dövrlərdə Naxçıvan məndə köhnə binaları və küçələri ilə tərk edilmiş qəsəbə təsəvvürü yaradırdı. Lakin bugünkü Naxçıvan insanda tamamilə başqa bir təəssürat formalaşdırır. Gəldiyim qənaət budur: Naxçıvan müasir, inkişaf edən, lakin milli üslubunu və tarixini qoruyub saxlayan sakit şəhərdir. Sanki Naxçıvan küllərindən yenidən doğulmuş, yenidən qurulmuşdur. Köhnə binalar təmir olunmuş, geniş və səliqəli küçələr salınmış, yeni binalar tikilmiş, tarixi abidələr bərpa olunmuşdur. Ən önəmlisi isə tarixi-memarlıq abidələrinin ətrafındakı açıqlıqdır. Heç bir tarixi abidənin yaxınlığında hündür binalar tikilməmişdir. Meydanları, parkları və qoruqları Arazın sahilindəki bu qədim şəhəri cənnətə çevirmişdir.

Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtıdır. Naxçıvanqalanın yaxınlığında 2500 nəfərlik yeni məscidin tikintisi yekunlaşmaq üzrədir. Bu məscid İslama "Naxçıvan yadigarı"dır.

Naxçıvanda Nuhun məzarını da ziyarət etdik, dualar oxuduq. Biz hələ də Nuhu dünyaya tanıtmamışıq. Çünki bizdə nə məlumat, nə sənəd, nə də muzey var.

Yazının bu yerində bir haşiyə çıxaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan üçün gördüyü işləri diqqətə çatdırmaq istəyirəm. Bu gün Naxçıvan Muxtar Respublikası hər gün dəyişən və inkişaf edən müasir muxtar respublika olmaq yolunda inamla irəli doğru gedir. Bunu da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun idarəçiliyinə borcludur.

Səfər zamanı Naxçıvanqalada keçirilən bal festivalında gördüklərim, Naxçıvan Biznes Mərkəzində Naxçıvanda istehsal olunan qida və sənaye məhsullarının sərgisi ilə tanışlığım və bütün bunları qürurla bizə çatdıran məsul şəxslər məni də qürurlandırdı.

Hesab edirəm ki, Naxçıvanda media nümayəndələri arasında keçirilən görüş və bu zaman əməkdaşlıq üçün yeni istiqamətlərin müəyyənləşdirilməsi çox səmərəli olacaq.



## Tanınmış etnoqraf-alimin 70 illik yubileyi qeyd edilib



*AMEA Naxçıvan Bölməsində tanınmış etnoqraf-alim, AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin anadan olmasının 70 illiyinə həsr edilən tədbir keçirilib.*

Əvvəlcə alimin xatirəsi ehtiramla yad edilib.

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Qadir Qədirzadənin elmi və pedaqoji fəaliyyətindən danışıb. Qeyd edib ki, Azərbaycan etnoqrafiyasının Naxçıvan materialları əsasında etnik tarix, ailə və məişətlə bağlı qədim inamlar və onların digər türk xalqları ilə ortaq cəhətlərini öyrənmək alimin apardığı elmi-tədqiqat işlərinin başlıca istiqamətləri və araşdırma obyekti olub. Diqqətə çatdırılıb ki, Qadir Qədirzadə Türkiyə, İran, Rusiya, ABŞ və digər ölkələrdə respublikamızı layiqincə təmsil edib. O, AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin və qurumun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, eyni zamanda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu Elmi Şurasının üzvü olub.

Alimin elmdə əldə etdiyi nailiyyətlərinə görə 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunduğunu xatırladan bölmə sədri Qadir Qədirzadənin "Əshabi-Kəhf: müqəddəslik, tarixilik və inancların genezisi", "Ailə və məişətdə bağlı adətlər, inamlar, etnogenetik ələqələr", "Nuh Peyğəmbər, Dünya Tufanı və Naxçıvan", "Naxçıvan: Nuh baba və Türk atadan gələn yol", "Milli-mənəvi dəyərlərimiz", "Kitabi-Dədə Qorqud və Naxçıvan: qarşılaşdırmalı etnoqrafik motivlər", "Dünya və İnsan: başlanğıcın sonu, sonun başlanğıcı" və digər bir çox əsərlərin müəllifi olduğunu söyləyib. Bunlarla yanaşı, o həm də "Naxçıvan Ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası" (Azərbaycan və ingilis dillərində), "Naxçıvan tarixi", "Naxçıvanın tarixi atlası", "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlas" kimi məlumat nəşrlərinin də əsas müəlliflərindən idi.

Alimin orijinallığına və əhəmiyyətinə görə maraq doğuran "Dünya və İnsan: başlanğıcın sonu, sonun başlanğıcı" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi mükafatına layiq görülüb və ali məktəblərdə dərslik kimi tədris edilməsi tövsiyə olunub.

Bölmə sədri alimin rəhbərliyi altında 5 fəlsəfə doktoru hazırlandığını, 400-ə yaxın elmi-kütləvi əsərin, o cümlədən 22 kitab və monoqrafiyanın müəllifi olduğunu bildirib.

Sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin həyat yolu və elmi fəaliyyəti" mövzusunda məruzəsi dinlənilib.

AMEA-nın müxbir üzvləri – Əliəddin Abbasov, Vəli Baxşəliyev, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov və Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev çıxış edərək alimin şərəfli ömür yolundan, zəngin elmi fəaliyyətindən söz açıblar.

Sonda Qadir Qədirzadənin ailə üzvlərindən İqrar Əliyev və qızı, tarix üzrə fəlsəfə doktoru, dosent Türkan Qədirzadə çıxış edərək tədbirin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

Tədbirdə görkəmli alimin müxtəlif illərdə çəkilmiş fotoşəkilləri, kitab və monoqrafiyalarından ibarət slayd nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki Kollecində "Ümumi və tam orta təhsil səviyyəsi üzrə fənn kurikulumlarının tətbiqi" mövzusunda növbəti təlim kursu keçirilib.*

## Fənn kurikulumları ilə bağlı növbəti təlim-seminar



İnformatika fənni üzrə keçirilən təlim kursunu Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin informatika müəllimi Firuzə İsmayılova aparıb.

Qeyd olunub ki, təlim kursunun təşkil edilməsində məqsəd hər bir fənn müəlliminin peşəkarlığının artırılması və dərslərin daha yüksək keyfiyyətdə tədrisinə köməklik etməkdir.

Bildirilib ki, təhsil kurikulumları cəmiyyətin tələbatına uyğunluq baxımından təklifyönümlü və tələbyönümlüdür. Bu üsul müəllim fəaliyyətinin idarə olunması, dəyərləndirilməsi baxımından əhəmiyyət daşıyır. Müəllimlər tədris fəaliyyətinin layihəsini hazırlamaqda, plan qurmaqda, fəaliyyət məqsədlərini həyata keçirməkdə daha müstəqil olurlar. Kurikulum təlim metodunda fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyən olunub və əsas diqqət şagird və tələbələrin nümayiş etdirməli olduğu fəaliyyətlərə yönəldilib.

Vurğulanıb ki, informatika fənni üzrə təhsil proqramında (kurikulumda) təlim standartları məzmun xətləri üzrə verilir. İnteraktiv xarakterə malik olan bu məzmun müxtəlif biliklərin bir-biri ilə əlaqəsinin təkcə informatika fənni daxilində deyil, həmçinin digər fənlərdə və real həyatda olduğunu anlamağa imkan verir. İnformatikanın tədrisi zamanı ümumiləşdirmə, konkretləşdirmə, analiz, sintez, təsnifetmə və sistemləşdirmə kimi əqli mühakimə üsullarından istifadə olunur ki, bu da şagirdlərin məntiqi təfəkkürünün inkişafını sürətləndirir, onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, alqoritmik təfəkkürlərini inkişaf etdirir.

Təlim kursunda iştirakçıları maraqlandıran suallar təlimçi tərəfindən cavablandırılıb və fənnin tədrisi ilə əlaqədar müzakirələr aparılıb.

Qeyd edək ki, kurslar noyabrın 2-dək davam edəcək. Naxçıvan Dövlət Texniki Kollecinin, Naxçıvan Musiqi Kollecinin və Naxçıvan şəhər ümumtəhsil məktəblərinin müəllimləri üçün keçirilən təlim kurslarında Azərbaycan dili və ədəbiyyat, fizika, kimya, riyaziyyat, coğrafiya, biologiya, xarici dil, tarix və informatika fənləri üzrə 147 müəllim iştirak edir.

**Güntac ŞAHMƏMMƏDLİ**

Xalq təqvimi

# Oktyabr – məhsuldar ayın bol qayğıları

***Ta qədimdən ata-babalarımızın həyatında oktyabr ayı məsuliyyətli, qışın son hazırlıqlarının görüldüyü dövr hesab olunub. Oktyabr ayı həm də taxıl səpini dövrü kimi yadda qalıb. Etnoqrafik materiallar göstərir ki, rəncbər babalarımız səpinin dövrü və müddəti haqqında ətraflı emprik biliyə malik olublar. Səpin xalq təqvimi və fenoloji müşahidələrlə müəyyən edilib. Payızda durnaların isti ölkələrə köçməsi səpinin başlanmasına işarə idi. Ona görə də xalq arasında belə bir deyim var: Durna getdi, tuma çıx, durna gəldi, şuma çıx. Səpin vaxtı başqa yerli əlamətlərlə də təyin edilirdi. Oktyabr ayında ağacların yarpaqlarının saralmağa başlaması da səpin vaxtının çatdığını bildirir. Müxtəlif fenoloji müşahidələrə görə, qışın sərt və ya mülayim, yağıntılı və quraq keçəcəyini də təyin edirdilər.***



Xalq arasında təsərrüfat qayğılarının, qışa hazırlıq işlərinin başdan aşdığı oktyabr ayında tənbəllik edən adamlara işarə olaraq: "əkici ol, bilici olma" ifadəsi işlədilirdi. Yəni "il quraq keçəcək" bəhanəsi gətirərək əkin aparmamaq pislənirdi. Təcrübəli rəncbərlər yayda sürülmüş yeri, səpinqabağı "pərşum" (ikinci və çəpəki) edir, sonra səpinə başlayırdılar. Bu həm də birinci şumdan sonra göyərmiş alaq otlarının məhvinə səbəb olurdu. Etnoqraf Qəmərşah Cavadov göstərir ki, xalq arasında yayda əkilən əkinə "arağac" (erağac), payızdan 20 gün keçəndən sonra başlanan səpinə "şahtum", bir ay sonrasına isə "şahrəma" deyilərdi. Xalq arasında belə bir misal var: "küz ək, küz sula, küz olmasa, yüz sula". Bəzi tədqiqatçılar "küz" (ayrılmış sahə, heyvandarlıqda da bir qisim heyvanı seçib saxlamaq üçün ayrılmış yer) sözü ilə güz (payız) sözünü dolaşıq salırlar. Böyük ehtimalla, suvarmaya aid olan güz – payız deyil, küz – ayrılmış sahədir.

Düzdür, suvarılan əkinlərə payızda verilən birinci su, torpaq suyu vacibdir. Payızda su içməyən taxıl yazda-yayda nə qədər su içsə də, məhsuldarlıq aşağı düşəcək. Bu dövrdə əkinləri suvarmaq üçün onun içərisində müəyyən ara ilə şırımlar çəkilir. Naxçıvanda bu şırımlar "mora", Azərbaycanın digər bölgələrində bu şırımlar "küz" adlanır. Müasir dövrümüzdə isə əkində daha səmərəli olan şırım üsuluna keçilib.

Oktyabr ayında bağbanların da işi çox olur. Cəviz ağaclarının meyvəsi çırpılır. Yetişib göy qabıqdan ayrılan cəvizlər üstüörtülü, havalanan yerdə qurudulur. Əks-halda içərisi kiflənib xarab ola bilər. Cəviz, əsasən, dağlıq ərazilərdə becərilir və ağacı çox uzunömürlüdür. Bu dövrdə aranda qış armudunun, dağlıq zonada isə almanın yığım vaxtıdır. Toplanan almalar yeşiklərə yığılır, üstü örtülərək həyətdə kölgə bir yerdə saxlanılır. Soyuq düşənə yaxın yeşiklər bir daha çeşidlənir. Yığılan zaman zədə alan və xarab olmağa başlayan meyvələr seçilib götürülür ki, digər saf meyvələri xarab etməsin. Yeşiklər qış üçün nəzərdə tutulmuş anbara daşınır. Meyvə yığılan bina rütubətli və isti olmamalı, havası sabit saxlanılmalıdır. Heyva isə alma-armuda nisbətən bir qədər gec – oktyabrın axırı, noyabrın əvvəli toplanır. Oktyabr ayında bağlarda üzüm də yığılıb qurtarır. Əgər yağışlar başlayarsa, gilələr çatlayıb xarab olacaq. Milax üzümü yağışa düşərsə, onu bir neçə gün açıq havada sərib qurutmaq və sonra asmaq lazımdır. Üzüm yığıldıqdan sonra bağa payız suyu verilir, bu həm də tənəklərin basdırılması məqsədi üçün edilir ki, yaş torpaq kolun üzərində yapışıb qalsın.

Əsas qış turşusunun hazırlanması da oktyabr ayında həyata keçirilir. Turşunun bu vaxt qoyulmasının səbəbləri turşu üçün lazım olan məhsullarla əlaqədardır. Belə ki, turşuda istifadə edilən tərəvəzlərdən biri olan kökü vaxtilə bütün mövsümlərdə tapmaq mümkün deyildi. Bu gün isə muxtar respublikada ərzaq bolluğu təmin edilib. Naxçıvanın dükan-bazarlarından ilin istənilən vaxtı meyvə-tərəvəz və digər ərzaq məhsullarını almaq mümkündür. Naxçıvanda illik turp və kök arpa biçimi zamanı (iyunun axırında) əkilərdi və əsasən, oktyabrda tədarük edilərdi. Turşuda istifadə olunan pomidor isə artıq bostan sovuşanda təmiz yığılıb satışa çıxarılırdı. Digər bir ərzaq məhsuluna – kələmə gəldikdə isə bu, illik kələmdir. Bu kələm sortu, əsasən, sərinlər düşəndən sonra bükür, bərkiyir. Erkən qoyulan turşu istidə tez hasilə gəlir, vaxta qədər sirkələşir. Bu səbəblərə görə də oktyabr ayı turşu qoyulma mövsümü kimi qəbul edilir.

Xalq təqviminə görə, bu dövrdə məhsul (mehrican, mehrikan) bayramı qeyd olunardı. Əkinçi babalarımız ilboyu çəkdikləri zəhmətin bəhrəsini müxtəlif mövsümlərdə toplayıb qarşıdan gələn, el arasında "qarlı qış" adlanan dövrə hazırlaşardılar. Ona görə də oktyabr ayında məhsul bayramını keçirər, bir tərəfdən, onlara ruzi verən Tanrıya dua edər, qurban kəsər, digər tərəfdən, şadlıq edib öz zəhmətlərinin bəhrəsi hesabına əylənər, yeni folklor nümunələri yaradardılar.

Etnoqraf Asəf Orucov "Xalq təqvimi" kitabında bu bayram haqqında geniş məlumat verib. Müəllif müxtəlif mənbələrə istinadən bu bayramın ayrı-ayrı türk xalqlarında oktyabrın 8-dən 13-nə kimi, digər mənbədə 16-dan 30-dək – Novruz bayramı kimi təntənəli qeyd edildiyini yazır.

Göründüyü kimi, ata-babalarımız görüləcək işləri xalq təqviminə görə müəyyənləşdiriblər. Oktyabr ayını isə ən məhsuldar və ilin yekunu kimi qeyd ediblər.

**Zaleh NOVRUZOV**

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisində avqustun 4-də 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Dövlət Baytarlıq Xidmətinə də müəyyən tapşırıqlar verilib. Qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı mal-qaranın, ev quşlarının, arı ailələrinin xəstəliklərdən qorunması, zoobaytar qaydalar əsasında yemləndirilməsi, saxlanılma şəraiti və digər məsələlərlə əlaqədar ardıcıl tədbirlər görülür, sahibkarlar arasında maarifləndirici görüşlər təşkil olunur. Növbəti maarifləndirici tədbir Babək rayonunun Babək qəsəbəsində keçirilib.

Heyvandarlıqla məşğul olan sahibkarlarla keçirilən görüşdə xidmətin sektor müdiri Şəmsəddin Nağıyev çıxış edərək bildirib ki, yem rasionu heyvanların gündəlik zəruri qida maddələrinə və enerjiyə olan fizioloji tələbatını ödəmək üçün hesablanmış yemlərin məcmusudur. Rasionlar heyvanların cins-yaş qrupları, məhsuldarlığı, mövcud yem bazası nəzərə alınmaqla aylıq, mövsümi və illik hazırlanır.

Qeyd olunub ki, qışlama dövründə heyvanların zülal ehtiyacının yarısı qaba yemlərin hesabına təmin edilir. Hazırda bu yem ənənəvi olaraq kip şəklində istifadə edilir və nəticədə, heyvana verilən yemin 10-20 faizi itkiyə gedir. 3-5 santimetr ölçüdə doğranaraq küləş halına salınan yemi isə heyvan asanlıqla mənimsəyib həzm edir. Doğranmış küləş yemləmə üçün sadə və əlverişli üsuldur. Küləşin doğrantısına qarışıq yem – kəpək də əlavə olunur ki, bu da onun qidalılıq dərəcəsini artırır.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Ramiyyə ƏKBƏROVA**

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Şahmat, Basketbol, Yüngül Atletika və Atıcılıq federasiyalarının təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin şagirdləri arasında spartakiadaya start verilib.*

## Spartakiadaya start verilib



İki gün davam edəcək spartakiada "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü, şahmat, yüngül atletika, basketbol, həndbol və stolüstü tennis növlərini əhatə edir.

Naxçıvan Şahmat Mərkəzində isə zəka sahibləri birincilik uğrunda qüvvələrini sınayırlar. 8 komandalı yarışda 2005-2007-ci illər təvəllüdlü məktəbli şahmatçılar mübarizə aparırlar. Hər komandanın heyətində 5 oğlan və 4 qız zəka sahibi qüvvəsini sınayır. Yarış İsveçrə sistemi üzrə keçirilir.

"Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə yarışın proqramına əsasən 9 komandanın idmançıları 100 metr məsafəyə qaçış, qumbaraatma, turnikdədartınma, 2000 metr məsafəyə kross qaçışı və pnevmatik silahdan 10 metr məsafəyə atış üzrə yarışlarda mübarizə aparırlar.

Basketbol üzrə keçirilən yarışlarda isə 4 komanda iştirak edir. Beynəlxalq Basketbol Federasiyasının qaydalarına əsasən təşkil olunan yarış dövrə sistemi üzrə keçirilir.

Stolüstü tennis yarışlarında 7 komanda birincilik uğrunda mübarizə aparır. 2001-2003-cü illər təvəllüdlü məktəblilərin mübarizəsində hər komandanın heyətində 3 oğlan və 3 qız tennisçi var. Yarış olimpiya sistemi üzrə keçirilir.

Yüngül atletika yarışının proqramına əsasən 2001-2003-cü illər təvəllüdlü oğlan və qızlar birincilik uğrunda mübarizə aparırlar. Hər komandanın heyətində 6 oğlan və 6 qız məktəbli iştirak edir. Onlar 100 və 400 metr məsafədə finiş xəttini birinci keçməyə çalışacaqlar.

Spartakiadada həndbol üzrə qızların yarışında isə 5 komanda mübarizə aparır. Hər komandanın heyətində 14 məktəbli iştirak edir.

Qeyd edək ki, spartakiadaya bu gün yekun vurulacaq və qaliblər İlham Əliyev adına Olimpiya-İdman Kompleksində mükafatlandırılacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Futbol üzrə muxtar respublika çempionatında növbəti turun oyunları olub

*Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının muxtar respublikanın Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq keçirilən futbol üzrə XVII muxtar respublika çempionatında növbəti turun oyunları olub.*



Mövsümə iddialı başlayan "Araz-Naxçıvan" futbol komandası geridə qalan turlarda məğlubiyyətsizlik seriyasını davam etdirib. İlk olaraq Şahbuzda "Batabat" komandasının qapısından 5 cavabsız top keçirən "qırmızı-ağlar" növbəti iki turda "Dübəndi" (Ordubad) və "Sədərək" (Sədərək) komandalarını qəbul edib. Hər iki komandanı "evə" xalsız yola salan Naxçıvan təmsilçisi 5 görüşdən sonra maksimum xalla turnir cədvəlinin lideridir. Eyni zamanda "Araz-Naxçıvan" cari mövsümdə qapısının toxunulmazlığını qoruyan yeganə komandadır.

Keçirilən növbəti 3 tur ərzində məğlub olmayan daha 3 komanda var: "Arpaçay", "Babək" və Naxçıvan Dövlət Universiteti (NDU). Şərur təmsilçisi səfərdə "Dübəndi" komandasını məğlub etdikdən sonra (4:0) doğma arenada NDU komandası ilə qarşılaşıb. Gərgin keçən görüş 1:1 hesabı ilə başa çatıb. Bu görüşdə yaddaqalan digər məqam hakim tərəfindən göstərilən 4 qırmızı vərəqə olub. Növbəti görüşdə isə "Arpaçay" "Kəngərli" komandasını 6:1 hesabı ilə məğlubiyyətə uğradıb.

Babəkin eyniadlı komandası isə universitet komandası ilə səfər heç-heçəsindən (1:1) sonra "Əlincə" (Culfa) komandasını doğma arenada məğlub etməyi bacarıb. NDU komandası isə şahbuzlu həmkarları üzərindəki 3:0 hesablı qələbəyə seviniblər.

Hazırda turnir cədvəlində xal qazanmayan iki komanda var: "Batabat" və "Dübəndi". Şahbuz təmsilçisindən fərqli olaraq ordubadlı futbolçular rəqib qapısından top belə, keçirə bilməyiblər.

Bombardirlər cədvəlinə isə "Araz-Naxçıvan"ın hücumçusu Vüsal Əliyev başçılıq edir. Onun aktivində 6 top var. "Qırmızı-ağlar"ın digər hücumçusu Tağı Seyidov və "Arpaçay"ın futbolçusu İbrahim Əliyev isə 5 topla ikinci və üçüncüdür.

**III tur**

*"Əlincə" (Culfa)-"Sədərək" (Sədərək) 3:2*
*"Batabat" (Şahbuz)-"Araz-Naxçıvan" 0:5*
*"Dübəndi" (Ordubad)-"Arpaçay" (Şərur) 0:4*
*Naxçıvan Dövlət Universiteti-"Babək" (Babək) 1:1*

**IV tur**

*"Kəngərli"-"Əlincə" 2:2*
*"Sədərək"-"Batabat" 4:3*
*"Araz-Naxçıvan"-"Dübəndi" 3:0*
*"Arpaçay"-NDU 1:1*

**V tur**

*NDU-"Batabat" 3:0*
*"Babək"-"Əlincə" 3:1*
*"Arpaçay"-"Kəngərli" 6:1*
*"Araz-Naxçıvan"-"Sədərək" 5:0*

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 5 | 5 | 0 | 0 | 19-0 | 15 |
| 2. | Arpaçay | 5 | 4 | 1 | 0 | 23-6 | 13 |
| 3. | Babək | 4 | 3 | 1 | 0 | 13-3 | 10 |
| 4. | NDU | 4 | 2 | 2 | 0 | 8-2 | 8 |
| 5. | Kəngərli | 4 | 1 | 1 | 2 | 6-9 | 4 |
| 6. | Əlincə | 5 | 1 | 1 | 3 | 6-15 | 4 |
| 7. | Sədərək | 4 | 1 | 0 | 3 | 6-14 | 3 |
| 8. | Dübəndi | 4 | 0 | 0 | 4 | 0-13 | 0 |
| 9. | Batabat | 5 | 0 | 0 | 5 | 8-27 | 0 |

**Qeyd:** "S" – sıra, "O" – oyun, "Q" – qələbə, "H" – heç-heçə, "M" – məğlubiyyət, "T/F" – top fərqi, "X" – xal.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

"Vüsal" Kiçik Müəssisəsinə məxsus 0700048241 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 791